*Gənc qazi müəllim Müşviq Quliyev:*

# “Yaxşı müəllim olmağın xəyalını qururam”

**Bu** günlərdə gənc, dinamik bir müəllimlə tanış olduq. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin medallı müəllimi, Vətən müharibəsi qazisi Müşviq Quliyev müəllimlikdə ən yaxşılardan olmağa iddialı olanlardandır. Xətai rayonundakı 88 nömrəli tam orta məktəbdə tam orta, Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat mühəndisliyi fakültəsində bakalavr təhsili alıb. 1 illik hərbi xidmətə inşaat mühəndisi kimi getsə də, qayıtdıqdan sonra müəllimlikdə görüb gələcəyini. Buna necə nail olduğuna gəlincə, riskli addımlar, kəskin dönüşlər, çevik qərarlar, qorxusuz planlar gənclik xüsusiyyəti deyilmi? Gəncliyə məxsus qərarlarını gənc müəllim Müşviq Quliyevin öz dilindən dinlədik.

## “Qarşıma qoyduğum hədəflərə nail olmuşam”



Hərbi xidmətdən sonra iş axtarırdım. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində vakansiya olduğunu gördüm və müraciət etdim. Mərkəzdə tədris prosesinə ixtisaslı mütəxəssislər cəlb olunanda mən də CV göndərdim, 1 həftə içərisində müsahibəyə dəvət edildim və qəbul oldum. 3 ay müddətində Koreyada təlimlər keçdik. Təlimlərdə kurikulumlar, modul yanaşma, peşə standartlarının rolu, əsas səriştələr, əsas pedaqoji anlayışlar, peşə təhsilində istehsalat təlimi və təcrübəsi barədə məlumatlar verildi. Sonra vətənə qayıdaraq ən müasir maddi-texniki baza ilə təchiz olunan mərkəzdə işə başladıq.

*– İnşaat mühəndisi olmaq qərarınızda valideynləriniz rol oynayıb? Müəllimlikdəki uğurunuzu daxili bir arzu ilə izah etməyə çalışıram.*

- Əslində, yox. Yeniyetməlikdən hər yerdə işləməyi düşünmüşdüm, amma müəllim olmaq arzum olmamışdı. Hərbçi olanda zabit kimi qalmağı belə düşünmüşəm. Amma həyat elə gətirdi ki, kadr hazırlığı prosesinə qoşuldum, çox həvəslə yeniyetmə və gənclərə bir peşənin sirrini öyrətməyə çalışıram.

*– Gənc müəllim olaraq sadəcə təhsildə yox, hərb meydanında da adınızın qarşısına böyük uğurlar yazdırmısınız. Qazi müəllimin müharibə gündəliyi necə başlayıb?*

- Yeni tədris ilinə hazırlaşırdım. Karantin dövrü olsa da, çağırış gələndə mərkəzdəydim. Sentyabrın 27-də çağırdılar, ayın 28-də getdim. Oktyabrın 4-dən “PK” atıcısı olaraq Füzuli istiqamətində döyüşlərə qatıldım, dekabrın 31-dək dövlətimizin əmrində oldum. Qaraxanbəyli kəndinə ilk girənlərdən biri də mən idim.

*– Döyüş şəraitində qorxunu yenmənin bir yolu varmı?*

- Məncə, cəsarət doğuşdan olan bir xüsusiyyətdir. Üstəlik, yaşıdlarım kimi mən də məktəbdə, ailədə ermənilərin amansızlığının nəticələrini öyrənmişdik. Düşmənin qarşısında Xocalı faciəsinin miqyasını dərisi soyulmuş körpələrin şəkillərindən görüb öyrənmiş, nifrətini ürəyinə, beyninə yazan bir nəsil vardı. Əksəriyyəti gənclərdən ibarət böyük bir ordunun sıralarında amansızlığa son qoymağa çalışırdıq.

*– Yaralandığınız gündən danışaqmı?*

- Müharibədə iştirak edib oradan yarasız, travmasız qayıdan biri varmı? Hər kəsin qəlpə yaraları var, hər kəs müharibədən iz daşıyır.

*– Döyüş yolunuzu harada sonlandırdınız?*

- İlan dağında. Pnevmaniya oldum. Həkimlər müdaxilə etsə də, nəticəsi olmadı. 3-4 gün heç nə edə bilmədilər, sonra məni qənimət olaraq ələ keçirilən silah-sursat aparan maşının arxasına qoyub Laçının Daşkəsən kəndinə apardılar. Ən ağır yaralılar əvvəlcə bura gətirilirdi. Kənd ermənilərdən geri alındıqdan sonra orada tibbi məntəqə yaradılmışdı. Amma buradakı həkimlər də heç nə edə bilmədi və Füzuli rayon Mərkəzi Xəstəxanasına aparıldım. Rayondakı Diaqnostika Mərkəzində müayinə olundum. KT müayinəsində ikitərəfli pnevmaniya diaqnozu qoyuldu və İmişli xəstəxanasına göndərildim. Mən İmişli xəstəxanasında olanda artıq Ermənistan kapitulyasiya aktını imzalamışdı. Müalicə alıb hərbi hissəmə qayıtdım və dekabrın 31-dək xidmətimi davam etdirdim.

*– Müharibədən sonrakı illər necə keçdi?*

- Müharibədən qayıdanda da yollarda xalqın gözündə, ürəyində yerimizi görmək qürurverici idi. Hər kəs əlindən gələni edirdi. Müharibəyə gedəndə də yol boyu həmin sevgini, əsgər üçün nəsə etmək arzusunu, çabasını görmüşdük.

*– Dövlətimiz fəaliyyətinizi yüksək qiymətləndirib...*

- Bəli, “Füzulinin işğaldan azad olunmasına görə”, “Laçının azad edilməsinə görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif edilmişəm.

*– Gənc olaraq edə bildiyiniz hər şeyi etmisiniz?*

- Əlbəttə. Qarşıma qoyduğum hədəflərin hamısına nail olmuşam. İnsanın ömrünün ilk 30 ilində əldə etmək istədiyi hər şeyi etmişəm - universitetə girmək istəmişəm, girmişəm, hərbi xidmətdə olmaq istəmişəm, hərbi borcumu ödəmişəm və s. Daha çox əziyyət çəkərək nail olmuşam istəklərimə. Ancaq “kaş ki”lərim də var. Əziyyət çəkmişəm, amma əməyimin qarşılığını almışam, həm maddi, həm də mənəvi baxımdan.

Əməksevərlik, zəhmətkeşlik hər insana xas olmalıdır. Çox fədakaram. Əlimi atdığım hər işi qısa müddətdə öyrənir, hər yeniliyi dərhal mənimsəyirəm. Hər kəsin könlünü almağı, hər kəsi sevməyi bacarıram. Böyüklə böyük, uşaqla uşaq kimiyəm. Mühitə tez adaptasiya olur, ətrafımdakı insanları razı salmağı bacarıram. Köməyə ehtiyacı olana kömək etməyə çalışıram. Bütün gənclərə də belə olmağı arzulayıram.

*– Ömrün yeni mərhələsi üçün nə planlarınız var?*

- Uşaqlıq arzularımda olmasa da, həyatımın qalan hissəsində yaxşı müəllim, ağıllı yolgöstərən olmağın xəyalını qururam. Tanınmış sənətkarların unudulmaz müəllimi olmaq bacardıqlarımın və bacaracaqlarımın ən dəyərlisi olacaq.

**Ruhiyyə DAŞSALAHLI**